# “Kövrək duyğular” silsiləsindən



***İlham ŞƏBİYEV,***
***hərbi həkim, şair***

## *Ana dəyəri*

**Bundan gözəl gün olar,**
**Bülbül qona aynama.**
**Hər yer çiçək, gül olar,**
**Sarılanda anama.**

**Ana ətrindən gözəl,**
**Duyğu, hisslər olarmı.**
**Bütün dünyanı gəzər,**
**İnsan heç yorularmı?**

**Ana, səsin muğamın,**
**Səsindən həzin gəlir .**
**Hər bir yerdən dünyanın,**
**Ana, nəfəsin gəlir.**

**Ana, sənin qucağın,**
**İstisi yanan kimi.**
**Sanki bir od, ocağın,**
**Közündən bir an kimi.**

**Ana, o nurlu siman,**
**Cənnətə baxan kimi.**
**O, gözlərin asiman,**
**Günəş nur saçan kimi.**

**Ana, yatdığım bələk,**
**Öpüm bələyən əlin.**
**Nolar yenə sığal çək,**
**Görüm cənnəti gəlim.**

**Yuxusuz gecələri,**
**Ana, istə qaytarım.**
**Heç vaxt olma kədərli,**
**Sənsiz gəlmir baharım.**

**Ana, istə etməsəm,**
**Söylə varsa istəyim.**
**Bil ki, səni incitsəm,**
**Onda vurmaz ürəyim.**

## *Əsgər məktubu*

**Ana, sayma günləri**
**Danış mənim səsimlə**
**O, əkdiyim gülləri**
**Bəslə öz nəfəsinlə**

**Mən üçün evdə ağlayıb**
**Düşünürsən duymuram**
**Yastığı qucaqlayıb**
**Ətrin gəlir doymuram**

**Ana, qalıbdır səsin**
**Yadımda hərdən gəlir**
**Sənin laylan nəfəsin**
**İndi səngərdən gəlir**

**Sanma düşmüşəm uzaq**
**Vətən mənə yaxındır**
**Mənə açılıb qucaq**
**Üçrəngli bayrağımdır**

**Mən əsgər, Vətən anam**
**Bayraq əmanətimdir**
**Məndə çoxalır inam**
**Sevgim, məhəbbətimdir**

**Vətən söyləyir salam**
**O, inciyər almasan**
**Nə olar anam, qal cavan**
**Heç vaxtı qocalma sən**

**Vətən görən gözlərim**
**Çək mənə sığal deyir**
**Vətən aydın səhərim**
**Bayrağa ucal deyir**

**Ana, axdı damla yaş**
**İslatdı Vətən sözün**
**Qalsın məktubum yaddaş**
**Vətən gecəm gündüzüm**

Ədalət .- 2025.- 2 may(№16).-S.14.